# Cəbrayıl şəhərində içməli və tullantı su infrastrukturlarının yaradılmasına başlanılıb

**Cəbrayıl şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yaradılması layihəsinin icrasına başlanılıb.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) AZƏRTAC-a bildirilib ki, agentliyin sifarişi ilə icra olunan Cəbrayıl şəhərinin xarici su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla 15 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Cəbrayıl şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə 2023-cü ildə 1 ədəd geoloji kəşfiyyat quyusu qazılıb. Seçilmiş mənbənin məhsuldarlığı və suyun keyfiyyət göstəriciləri şəhəri və ətraf kəndləri içməli su ilə təmin etməyə imkan verir. Cəbrayıl şəhərinin şimalında yerləşən quyu zonasında ümumilikdə 9 subartezian quyusunun qazılması layihələndirilib və artıq bu istiqamətdə işlərə başlanılıb. İlkin mərhələdə 3 quyu qazılacaq, şəhərdə məskunlaşacaq əhalinin sayı artdıqca yeni quyuların qazılması təmin ediləcək.

Layihə çərçivəsində Cəbrayıl şəhərində ümumi tutumu 7000 kubmetr olan 6 ədəd su anbarı inşa ediləcək. Hazırda 2000 kubmetr tutumu olan su anbarının və suyun Cəbrayıl şəhərinə çatdırılmasını təmin etmək üçün 3 kilometr uzunluğunda magistral su kəmərinin, həmçinin tullantı sularının təmizləyici qurğuya ötürülməsini təmin edən 6 kilometr uzunluğunda kanalizasiya kollektorunun inşası davam etdirilir.

Cəbrayıl şəhərində 52 kilometr içməli, 38 kilometr tullantı və 40 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 6 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək. Təmizləyici qurğu və kollektor Cəbrayıl şəhəri ilə yanaşı, bəzi kəndlərin də tullantı sularının toplanaraq təmizlənməsinə imkan verəcək.

Cəbrayıl şəhərində yaradılan yeni infrastruktur "ağıllı su" sistemi əsasında idarə olunacaq. Layihə çərçivəsində hər bir infrastruktur elementi SCADA sistemilə təmin ediləcək.

Yaxın vaxtlarda "Böyük qayıdış" proqramı çərçivəsində Cəbrayıl rayonunun Horovlu və Şükürbəyli kəndlərində məskunlaşmanın başlanması nəzərə alınaraq həmin kəndlərdə su təchizatı sistemlərinin yaradılmasına hazırlıq işləri görülür.



Azərbaycan.- 2024.- 1 iyun, № 114.- S.8.